

Mina RƏŞİD

# SƏSİ LİMONLU XANƏNDƏ

*Şəhid xanəndə Şahmalı Kürdoğlunun əziz xatirəsinə*

Müharibə hələ başlamamışdı, onda mən uşaq idim. Üzbəüz qonşumuz kənddə başqalarından fərqlənirdi. Şahmalı əminin gözəl səsi vardı. Hərdən onun şirin avazı gələrdi. Uşaq olsam da, bu səsi qəlbimdə hiss edərdim... Sonra başa düşdüm ki, o, tanınmış, sevilən bir xanəndədi. Şahmalı Kürdoğlunun evi günbəzlərlə bəzədilmiş daş hasarı və limon bağı ilə də fərqlənirdi. Axı kim həyətində onun kimi gözəl bağ sala bilərdi? Bu bağda öz əli ilə becərdiyi nar, armud, feyxoa, zəfəran və daha nə naz-nemətlər vardı... Həyətinin bizimlə üzbəüz olan darvazasından başqa evinə yaxın başqa bir qapısı da vardı. Şahmalı Kürdoğlu yaşı əllini çoxdan keçmiş, saçları ağappaq olsa da, uca boyu, işıqlı siması ilə yaraşıqlı bir kişiydi. Yadımdadı, anama həmişə "Xurma bacı" deyərdi, adı Durna olsa da. Atam onun xətrini çox istəyərdi. Qardaşımın toyuna gələndə becərdiyi limondan da gətirmişdi. Onun limonları da səsi kimi başqa dad verirdi. Gənc, gözəl xanımı və Şahiməli adında balaca oğlu da yaxşı yadımdadı. Amma onun əvvəlki ailəsində iki oğlu və bir qızı olduğunu da eşitmişdik.

İllər ötdü, hələ dərk edə bilmədiyim müharibə başladı. Deyirdilər, ermənilər illərlə üzərində çalışdıqları çirkin planlarını həyata keçirməyə başlayıb. Nankor qonşumuz dinc əhaliyə hücum çəkir, günahsız qanlar axıdır, qırğınlar edirdi. Bilməzdim ki, bu soysuzlar bir gün ata-anamı əlimdən alıb, yurdumuzu talayacaq və mən ömrüm boyu qanımı mürəkkəbə çevirib belə nisgilli xatirələrin sözlə şəklini çəkəcəyəm...

Artıq Ağdam şəhəri, onun yaxın kəndlərindən olan bizim Qiyaslı da müharibənin gerçəklərini yaşayırdı. 1992-ci ilin yazında Ağdam şəhərinə atılan mərmilərdən atam şəhid oldu... Həmin ilin

payızında isə qonşumuz, o səsi limonlu xanəndə Şahmalı Kürdoğlu da balaca oğlu ilə öz bağında şəhid oldu...

Həmin gün bugünkü kimi yadımdadı. Onda mərmi səsinə, ölüm-itim xəbərinə çoxdan öyrəşmişdik. Amma ogünkü mərminin uğultusu hələ də yaddaşımı silkələyir. İndi bu sətirləri yazarkən həmin uğultudan yenə həyəcan keçirir, olanları ürək ağrısı ilə xatırlayıram. O gün dəhşətli bir səs eşitdik, səs o qədər yaxın və o qədər vahiməliydi ki, tez qaçıb evimizin zirzəmisinə doluşduq. Aradan bir az keçdi, uşaq sadəlövhlüyü ilə darvazanı açıb küçəyə çıxdım. Elə sol tərəfə baxınca Şahmalının həyat yoldaşının qucağında al qanına bulaşmış balası qışqıra-qışqıra özünü küçəyə atdığını gördüm... Onda mən dünyanın bütün rənglərini unutdum. Dünya qan rənginə dönmüşdü. Elə sarsılmışdım ki, donub qalmışdım... Sonra nələr oldu, bir də baxmağa cəsarətim çatmadı. Axı nə yaşım vardı ki...

O gün başqa kənddə gecələdik. Səhər açılan kimi evimizə qayıtdıq. Kənd camaatı xanəndənin faciəli ölümündən sarsılmış, ağacları, gülləri, limonları güllələnmiş o dillər əzbəri olan həyətə toplanmışdı. Beləcə, xanəndə böyük el məhəbbəti ilə son mənzilə yola salındı və Qiyaslı kənd qəbiristanlığında dəfn edildi...

1993-cü il iyulun 23-də Ağdam şəhərı ilə birgə bizim kəndimiz də işğal edildi. Elə o işğal günündə, lap düşmən kəndimizə yaxınlaşanda anam, balaca bacımla mən evimizdən ayrıldıq. Anama görə az qala düşmənə əsir düşəcəkdik. Onu evindən, yurdundan qoparmaq olmurdu. Sonra da Bərdənin Kətəlparaq deyilən kəndində neçə ev dəyişəndən sonra minnət götürməkdən bezib dəmir vaqonlardan birinə yerləşdik. Neyləsək də, anamı Bakıya – yataqxanaya apara bilmədik. Deyirdi ki, mən buradan kəndin havasını alıram. Üstəlik, iki oğlu da müharibədə idi. Bir neçə ildən sonra anam o dözülməz dəmir vaqonda ağır xəstəliyə düçar olub dünyasını dəyişdi...

Sonra taleyin hökmü ilə Bakıya gəlib çıxdım. Yaddaşım isə bəzən səssiz, bəzən də tufan qopararaq öz yerində qalırdı... Odur ki, gözlərimlə görüb uşaq yaddaşımda saxladıqlarımdan əlavə, qonşumuz, o istedadlı xanəndə Şahmalı Kürdoğlunun ömürlüyü ilə daha geniş tanış olmağa başladım. Öyrəndim ki, şirin avazını qonşudan dinlədiyim Ş.Kürdoğlu bir vaxtlar səsi ilə Filarmoniyanı lərzəyə gətirirmiş. Opera və Balet teatrında xüsusi tamaşaçıları olan müğənni ürəyə yatan səsiylə yanaşı, savadı, dünyagörüşü ilə də olduğu məclislərin yaraşığı imiş. O, böyük Füzulinin aşiqi kimi şairin qəzəllərini ürəkdən, ayrı bir şövqlə oxuyarmış. Xanəndə, musiqişünas alim Vəli Məmmədovla görüşüb Ş.Kürdoğlu ilə bağlı mətbuatda yazılar da yazdım. Vəli müəllim deyirdi ki, onun səsində Xan əminin səsinin çalarları vardı. Səsindən Qarabağ nəfəsi duyulurdu. Ş.Kürdoğlu musiqi ilə yanaşı, ədəbiyyatı, rəssamlığı gözəl bilirdi, hüquq təhsili almışdı. Həmişə dostlarına deyirdi ki, gəlib bizdə dincəlin. Əvəzsiz müəllim, “Ağa” kimi hörmət bəslədiyimiz muğam bilicisi və xanəndə Seyid Şuşinski onun müəllimi olub. Bir dəfə onu da Ağdama, Qiyaslı kəndinə qonaq aparmışdı...

Yazılarını maraqla izlədiyim hörmətli tənqidçimiz Vaqif Yusifli də Ş.Kürdoğlunun səsinin, sənətinin vurğunudur. Tənqidçi ilə elə bir görüşümüz olmayıb ki, bu gözəl xanəndəni xatırlamayaq. Vaqif müəllim təkcə söz yox, həm də səs sərrafıdır. V.Yusifli onunla dost imiş, hətta Qiyaslı kəndində xanəndənin qonağı da olubmuş...

Vəli müəllim deyirdi ki, əgər istəsəydi, o, doğma Bakıda yaşayar və sənəti ilə daha uca zirvələri fəth edərdi. Ona dəfələrlə demişdilər ki, evini, Qiyaslını bu müharibə şəraitində tərk eləsin. Amma doğulduğu ocaq, Qarabağ mühiti onu elə ağuşuna almışdı ki, özünü unutmuşdu...

O gün də nar ağacının yanında sanki ölümünü gözləyirmiş. Deyirlər, xanəndə qan qırmızı, cənnət meyvəsi narın rənginə bürünüb o dünyaya köç edərkən qonşudan onun gözəl avazı gəlirmiş:

Fəsillər ötüşüb keçdikcə zaman
Vaxt olur, həyatda dəyişir insan.
Mən səni unudan deyiləm, inan,
Sən də, ey gözəl yar, xatırla məni.
Sən də, ey gözəl yurd, xatırla məni...